Əlavə 2

**Tədris planına dair qeydlər**

1. İstedadlı şagirdlər üçün V və VI siniflərin hər biri 25 nəfərdən ibarət komplektləşdirilir.
2. Bu siniflərdə xarici dil kimi ingilis dili tədris olunur.
3. Aşağıdakı fənlərin tədrisi zamanı sinif iki qrupa bölünür:
   - xarici dil;
   - fiziki tərbiyə;
   - informatika fənni üzrə praktik məşğələlər.
4. Dərsdənkənar məşğələ və dərnək məşğələsi qrupları şagirdlərin sayı 8 nəfərdən az olmamaq şərti ilə komplektləşdirilir.
5. Dərsdənkənar məşğələlərə ayrılmış saatlardan 1 saatı dərs cədvəlinə daxil edilməməklə "Həyati bacarıqlara əsaslanan təhsil" kursunun tədrisinə verilir.
6. Dərsdənkənar məşğələlər üçün nəzərdə tutulan digər 1 saat isə şagirdin meyil və marağı əsas tutulmaqla onların dünyagörüşünün, ayrı-ayrı sahələr üzrə bilik və məlumat dairəsinin genişlənməsinə istiqamətlənmiş aktual məsələlərə həsr oluna bilər.

Bu məşğələlərin nümunəvi proqramları yerli təhsil orqanlarının metodkabinetləri tərəfindən hazırlanıb təsdiq edilir.

7. Dərs ili ərzində tədris həftələrinin sayı, dərs məşğələlərinin başlanıb yekunlaşdırılması, dərs ilini təşkil edən yarımillərin müddəti, şagirdlər üçün tətillərin vaxtı hər bir dərs ilinə aid Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş ümumtəhsil məktəblərinin tədris planlarına dair "Qeydlər"də müəyyən edilir.